1969 Heydər ƏLİYEV: "Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm" 2024



# Milli-ictimai şansı zamanında gerçəkləşdirən TARİXİ ŞƏXSİYYƏT

*(əvvəli ötən sayımızda)*

## İllüziyalar və ritorika

Ümumən İttifaqda iqtisadi və siyasi şəraiti qaydaya salmaq üçün mərkəzi hökumətin hay-küylü siyasi kampaniyalarına, cəhdlərinə baxmayaraq, vəziyyət getdikcə kəskinləşmişdi. Belə ki, əmək məhsuldarlığı ilə əməkhaqqı artımı arasındakı kəskin fərqi emissiya yolu ilə azaltmaq uçurumu daha da dərinləşdirdi. Yaranmış kritik vəziyyətdən çıxmaq üçün müxtəlif proqramlar təklif olunsa da, illüziya olduğundan heç biri reallığa vəsiqə qazana bilmədi və həmin müddət iqtisadi sahədə novatorluq axtarışlarında itirilmiş oldu. Mərkəzlə respublikalar arasında qarşılıqlı münasibətlər problemi kulminasiya həddinə çatdı. Ölkədə yaranmış sosial-iqtisadi böhran çarə tapmaq üçün mübarizəni ciddiləşdirmişdi. İllüziyaların reallaşması mümkün olmadığından, müalicə də simptomatik yolla aparılırdı. Siyasətin əlində əsir qalan iqtisadiyyat çökdüyündən, dəqiq fəaliyyət proqramı da olmadığından, Sov.İKP mərkəzi aparatı tam idarəetmə iqtidarını itirdiyindən hərbi struktur öz şərtlərini asanlıqla diktə edirdi. Respublikaların paytaxtlarında (Bakı, Tbilisi, Vilnüs və s.) baş verən proseslər də mərkəzlə regionlar arasındakı uçurumu daha da dərinləşdirdi. Necə deyərlər, "aşağılar köhnə qaydada yaşamaq istəmirdilər, yuxarılar da köhnə metodlarla idarə edə bilmirdilər".

Kremldə aparılan siyasətin, gedən proseslərin, dünyanın gələcək taleyinə çox böyük təsir gücünə malik siyasi oyunların əsl mahiyyətindən xəbərdar olan tarixi şəxsiyyət Heydər Əliyevin o dövr üçün dedikləri daha xarakterikdir: *"O, (M.Qorbaçov nəzərdə tutulur) rəhbərliyə gəldikdən sonra iki ildən artıq mən onunla birgə işlədim... Sovet İttifaqı süqut edənədək onun fəaliyyətini izləyirdim... hər halda, etdiklərinin nəticələri göz qabağındadır".*

Qeyd edək ki, mərkəzin radikal-neqativ siyasi aksiyalar keçirməsində, dinc mülki əhaliyə qarşı silahlı qüvvələrin gücündən istifadə olunmasında erməni lobbisinin də rolu olmuşdur. "Qarabağ problemi"nin ssenarisi də mərkəzdəki məmurlar tərəfindən işlənib hazırlanmışdı. Niyyətləri də "bənzər problemlər"in zəncirvari xarakterli olmaqla, müxtəlif regionlarda təzahür etməsi idi. Son məqsədləri isə fövqəladə vəziyyət elan etməklə yenidən nəzarəti və idarəetməni ələ almaq idi (buna qismən də nail olundu).

Böhranın dərinləşməsinin qarşısının alınması sabitliyin ilkin şərti olduğundan iqtisadi sahədən daha çox siyasi sahədəki problemlərin həllinə diqqət ayrılırdı. Belə ki, o dövrdəki SSRİ-nin taleyi barədə mart referendumu, prezidentlik institutunun təsis edilməsi və seçkilər, dövlət çevrilişi cəhdləri, amorf qurum olan MDB-nin yaradılması haqqında müqavilə imzalanması həmin problemlərin həllinə yönəldilmiş mərhələlər idi.

Mərkəzi hakimiyyətin deklarativ-ritorik xarakterli islahatları heç bir fayda vermədiyindən ölkədə yaranmış siyasi vəziyyət nəzarətdən çıxmışdı. Buna baxmayaraq, Rusiya, Ukrayna və Belarus prezidentləri separat yolla Belovejskaya Puşşada "üçlər sazişi"ni imzaladılar və bəyan etdilər ki, SSRİ-nin mövcudluğu başa çatmışdır. Bu, həm yeni ittifaq müqaviləsinin denonsasiyasını, həm də "perestroyka"nın "katastroyka" olduğunu təsdiq etdi.

## Acizlik, komiklik, riyakarlıq və diletantlıq

Respublika miqyasında baş verən proseslər isə, ilk növbədə, 70-ci illərdə İttifaq səviyyəsindəki durğunluq tendensiyasının təkrarını xatırladırdı. 1987-ci ildən sonra İttifaq miqyasında durğunluq meyillərindən xilas üçün çarə axtarıldığı, əyalətlərdə müstəqillik üçün şərait yarandığı bir vaxtda ölkəmiz yaşamadığı durğunluq mərhələsini keçirməyə məcbur edilirdi. Kremldən Ulu Öndərin himayəsi olmadıqdan sonra əslində başsız qalmış ölkə rəhbərliyi üzərinə düşən ağır vəzifənin öhdəsindən gələ bilmirdi. Formalaşmış inkişaf tempini saxlamaq bacarıqları yox idi. Respublika rəhbərliyinin belə acizliyi və gücsüzlüyü mərkəzin ölkəmizə qarşı yeritdiyi siyasətə sərf edirdi. Məhz buna görə də Heydər Əliyevin Kremldəki bütün vəzifələrindən kənarlaşdırılmasından heç bir ay keçməmiş "Dağlıq Qarabağ" kartı ortaya atıldı. Rəhbərliyin acizliyi və səriştəsizliyi özünü bariz nümayiş etdirirdi. Bundan istifadə edən Ermənistan mərkəzi hakimiyyətin himayəsi ilə doğma torpaqlarımızı ələ keçirməyə başladı və tarixi-etnik torpaqlarımız olan Qərbi Azərbaycanda yaşayan soydaşlarımızı öz yurdlarından deportasiya etdilər.

Mərkəzin xalqların müstəqillik əldə etmək niyyətlərini məhv etməyə yönəldilmiş məqsədyönlü imperiya siyasətini Ümummilli Lider belə xarakterizə etmişdi: *"1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması da nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazisini ələ keçirməyə can atan şəxslərin əməlləri idi, həm də böyük bir siyasətin, artıq baş vermiş müsbət proseslərə maneçilik törətməyə yönəldilmiş siyasətin bir hissəsi idi".*

Xalqla rəhbərlik arasında yaranan dərin uçurum və narazılıq, situasiyanın düzgün qiymətləndirilməməsi, açıq desək, xalqın nə istədiyini konkret və mükəmməl ifadə edə bilməməsi, çıxış yolunu görməməsi, siyasi liderin xalqın yanında olmaması etiraz səslərinin, izdihamların küçələrə, meydanlara axmasına və xalq hərəkatına səbəb oldu. Heydər Əliyev fenomenindən ciddi tərzdə ehtiyat edən, qorxan mərkəzi hakimiyyət də xalqı xilas edə biləcək yeganə şəxsiyyətin kim olduğunu bütün təfsilatı ilə bildiyindən hər cür izolyasiyalarla onun xalqla ünsiyyətinin və nəhayətdə, birləşməsinin qarşısını almaqda israrlı idi. Buna görə də mərkəz tərəfindən iradəsiz və səbatsız, mərkəzin siyasətindən, ümumən siyasətdən xəbərsiz, lakin onu qeyd-şərtsiz dəstəkləyən adamlarla ölkədə tez-tez rəhbər dəyişikliyi aparılırdı. Qısa müddətdə aparılan dəyişiklikdə rəhbərliyi belə təsnifatlandırmaq olar: biganəlik və acizlik, sadəlövhlük və komiklik, riyakarlıq və meşşanlıq, diletantlıq və debütantlıq. "Rəhbər"lərin operativ dəyişikliyi nəticəsində ictimai-siyasi sabitlik pozuldu, onilliklər ərzində əldə olunan mədəni-mənəvi mühit çökdü, təsərrüfat sistemi dağıdıldı. Yaranan siyasi, iqtisadi, mədəni tənəzzül "Dağlıq Qarabağ" münaqişəsinin reallaşdırılmasına münbit şərait yaratdı. Mərkəz daxildən satqın "rəhbər"lərlə əlbir olub 1990-cı il dəhşətli 20 Yanvar qırğınını törətdi. Haqlı olaraq deyilib ki, "kədər insanları daha tez birləşdirir". Mərkəz özü də hiss etmədən keçid dövrünün təbəddülatlarını dəf edərək həqiqi müstəqil ölkənin lideri olacaq tarixi şəxsiyyətin öz xalqının bir hissəsi ilə təmasına səbəb oldu. Həmin günü Ulu Öndər belə xatırlayırdı: *"20-si axşam xəbər tutdum ki, onlar (mərkəzi hakimiyyət) Bakıya qoşun yeridiblər... Və ayın 21-də Moskvaya gəldim, evə gəlib ailə üzvlərimlə görüşdüm. Öyrəndim ki, Moskvada yaşayan azərbaycanlıların əksəriyyəti Bakıdakı matəmlə əlaqədar olaraq Daimi Nümayəndəliyə yığışıblar. Təbii ki, mən kənarda qala bilməzdim. Mən azərbaycanlıyam, bu mənim ölkəmdir, bu mənim xalqımdır. Qərara aldım ki, oraya, Daimi Nümayəndəliyə gedim".*

Ulu öndər Heydər Əliyev oğlu İlham Əliyevlə Nümayəndəlikdəki mətbuat konfransında iştirak etdi. O, çıxışında sovet rəhbərliyini məsələni siyasi yolla nizama salmadan günahsız insanların qətlə yetirilməsinə görə kəskin ittiham etdi. Bu hadisələrdən bir müddət sonra həmin il iyulun 22-də Heydər Əliyev Moskvadan Naxçıvana gəldi və payızda deputat seçildi.



## Tarixi şansın əldən çıxma ehtimalı...

Böyük siyasi oyunların əsl mahiyyətindən xəbərdar olan, baş verən dəyişikliklərin hansı nəticələr verəcəyini öz fəhmi və intuisiyası ilə duyan görkəmli dövlət adamı Ali Sovetin sessiyasında SSRİ-nin saxlanmasına dair referendum keçirilməsinin əleyhinə çıxış etdi. Qeyd etdi ki, hazırkı iqtisadi struktur, sosial-mənəvi mühit, milli azadlıq hərəkatları, bir sözlə, obyektiv proseslər SSRİ-nin süqutuna, müttəfiq respublikaların müstəqillik qazanmasına gətirib çıxaracaq. Bu çıxış etirazlarla qarşılandı və deputatların böyük əksəriyyəti referendumun keçirilməsi lehinə səs verdi. Naxçıvan Muxtar Respublikası isə referendumda iştirak etmədi.

Bir neçə ay ötdükdən sonra baş verən təbii proseslər Ulu Öndərin nə qədər haqlı olduğunu təsdiq etdi. Müttəfiq respublikalar ardıcıllıqla müstəqillik aktı qəbul etməyə başladılar. Ölkəmizdə də əmin-amanlıq, sabaha inam olmayan vaxtda, qeyri-müəyyənlik və ümidsizlik şəraitində Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Məhz bu səbəbdən də həmin illərdə xalq milli azadlığın ecazkar gücünü, miqyası bilinməyən sevincini yetərincə duymadı. Necə deyərlər, müstəqillik haqqında bu hüquqi akt ictimai-siyasi gerçəklik, müstəqil dövlətçilik aktı olmalı idi. Hadisələr mərkəzi imperiya hakimiyyəti tərəfindən hazırlanmış ssenari əsasında dövr etdiyindən, həqiqi siyasi liderin, tarixi şəxsiyyətin icbari yolla xalqdan ayrı salınması sayəsində formal və kövrək müstəqilliyin itirilməsi və tarixi şansın əldən çıxması ehtimalı sanki vahidə bərabər idi.

Meydan hərəkatı ilə hakimiyyətə gələn siyasətdən xəbərsiz, təcrübəsiz "lider"lər müstəqillik üçün nə siyasi, nə də iqtisadi özül yarada bildilər. Müstəqilliyin başqa ölkələrlə bərabərhüquqlu münasibətlər əsasında formalaşdığını dərk etmədiklərindən əlaqələrin kəsilməsini xilas yolu seçdilər. Qısa vaxt ərzində ərazilərimiz işğal olunmaqla siyasi, iqtisadi, mədəni-mənəvi mühitdə deqradasiya getdi və daha böyük tənəzzül baş verdi. Daxildən idarə oluna bilməyən, dəqiq desək, lideri və tarixi şəxsiyyəti olmayan ölkəni xaricdən idarə etmək asan olduğundan respublikamız parçalanmaq, başqa ölkələrin təsiri altına düşmək və müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqın həqiqi liderə, şəxsiyyətə, böyük öndərə, Heydər Əliyev dühasına ciddi ehtiyacı vardı. Lakin XX əsrdə ikinci dəfə müstəqilliyini qazanan ölkəmizdə əsrin əvvəlində baş verən tarixin təkrarlanmasına yol verilmədi.

> *Daxildən idarə oluna bilməyən, dəqiq desək, lideri və tarixi şəxsiyyəti olmayan ölkəni xaricdən idarə etmək asan olduğundan respublikamız parçalanmaq, başqa ölkələrin təsiri altına düşmək və müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqın həqiqi liderə, şəxsiyyətə, böyük öndərə, Heydər Əliyev dühasına ciddi ehtiyacı vardı. Lakin XX əsrdə ikinci dəfə müstəqilliyini qazanan ölkəmizdə əsrin əvvəlində baş verən tarixin təkrarlanmasına yol verilmədi.*

**1993-2003.** Böyük şəxsiyyətləri ancaq böyük xalqlar yetişdirə bilər. Xalqımızın yetişdirdiyi böyük tarixi şəxsiyyət, əsl lider Heydər Əliyevi xalq özü təkidlə ali hakimiyyətə dəvət etdi. Tarixi şans tam itirilməmiş dövlətimizin gerçək müstəqilliyini təmin edəcək tarixi şəxsiyyət yenidən siyasət meydanına qayıtdı. 1993-cü ildən bu qayıdışla ölkəmizi parçalanmaqdan, digər ölkələrin təsir dairəsinə düşməkdən, məhv olmaqdan xilas etdi və ən yeni tariximizi - müstəqil və müasir Azərbaycanın tarixini başlatdı.

> *Xalqımızın yetişdirdiyi böyük tarixi şəxsiyyət, əsl lider Heydər Əliyevi xalq özü təkidlə ali hakimiyyətə dəvət etdi. Tarixi şans tam itirilməmiş dövlətimizin gerçək müstəqilliyini təmin edəcək tarixi şəxsiyyət yenidən siyasət meydanına qayıtdı. 1993-cü ildən bu qayıdışla ölkəmizi parçalanmaqdan, digər ölkələrin təsir dairəsinə düşməkdən, məhv olmaqdan xilas etdi və ən yeni tariximizi - müstəqil və müasir Azərbaycanın tarixini başlatdı.*

O illərdə respublikamızın müstəqilliyi möhkəmləndirildi, dönməzliyi təmin edildi, yenidən sürətli inkişaf magistralına çıxarılması mümkün oldu, gələcək uğurların təməli qoyuldu. Uzaqgörən siyasət sayəsində qloballaşan dünyanın iqtisadi inteqrasiya istiqamətində açdığı imkanlardan səmərəli istifadə edilməyə başlandı. "Əsrin müqaviləsi", "Böyük İpək Yolunun bərpası" kimi planetar miqyaslı iqtisadi hadisələrin mərkəzində dayanıldı. Şərq və Qərb dəyərləri arasında optimal nisbət gözlənilməklə pozitiv balans yaradıldı və qloballaşmanın ideoloji, mədəni-mənəvi təxribat aspektləri neytrallaşdırıldı.

İlk illərdəki iqtisadi qeyri-sabitliyə baxmayaraq, bazar iqtisadiyyatına keçid islahatları davam etdirilərək azad sahibkarlıq, sərbəst rəqabət, büdcə sistemi və özəlləşdirmə qanunvericiliyi hazırlanıb tətbiq edildi. Müstəqillik qazanıldıqdan sonra ilk dəfə 1996-cı ildə iqtisadi artım əldə olundu. "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan nefti təkrar Qərbə doğru axmağa başladı, 1999-cu ildə ilk mənfəət nefti dünya bazarına çıxarıldı.

İllər ötdükcə möhkəm təməllər üzərində sürətlə inkişaf edən Azərbaycan aşağı gəlirli ölkələr qrupundan yüksək - orta gəlirli ölkələr qrupuna daxil oldu. Kiçik və orta sahibkarlıq, özəlləşdirmə, sənaye, kənd təsərrüfatı, turizm və digər sahələrdə böyükmiqyaslı hökumət proqramları və dövlət investisiyaları reallaşdırıldı.

**Ümummilli lider Heydər Əliyevin ideyalarını gerçəkləşdirən, onun siyasi varisi, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan hazırda regionda və beynəlxalq aləmdə mütləq söz sahibidir. Məqsədyönlü siyasət nəticəsində beynəlxalq qurumlarla səmərəli əlaqələr qurulub, önəmli neft strategiyası uğurla davam etdirilir.**

**Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən və 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bütün bunlar Azərbaycan üçün yeni iqtisadi perspektivlər açıb. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işləri geniş vüsət alıb, "Böyük Qayıdış" proqramı uğurla icra olunur.**

**Ulu öndər Heydər Əliyevin səyləri nəticəsində yaradılmış möhkəm təməllərə əsaslanan dövlətimiz Prezident cənab İlham Əliyevin rəhbərliyi və parlaq liderliyi ilə strateji hədəflərə, möhtəşəm qələbələrə imza ataraq, tarixi ədaləti bərpa etməklə müasir və müstəqil ölkəmizin firavan gələcəyinə doğru zəfər yolunu qətiyyətlə davam etdirir.**

**Hümbət MUSAYEV.**